**Adilə Abdullayeva,**
*Azərbaycan Milli Kitabxanasının Kitabxanaların metodik təminatı şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*
*ada.abdulla@gmail.com*

# İNFORMASİYA MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI - MKS-LƏRİN FƏALİYYƏTİNDƏ PRİORİTET İSTİQAMƏT KİMİ

***Xülasə:*** *Regionda informasiya mədəniyyətinin formalaşmasında MKS-lərin əsas fəaliyyət istiqamətlərindən, oxucularda informasiya mədəniyyətinin səviyyəsinin yüksəldilməsi məqsədilə regional layihələrdən, qarşıda duran mühüm vəzifələrdən bəhs edilmişdir.*
***Açar sözlər:*** *region kitabxanaları, informasiya mədəniyyəti, elektron resurslar, innovativ metodlar*

Bu gün kitabxananın cəmiyyətin mədəni irsinin qorunması və genişləndirilməsi, maarifləndirmə, təhsil, tərbiyə, elm kimi funksiyalarına milli və dünya informasiya resurslarına əlyetərliyi təmin edən informasiya və təhsil mərkəzlərinin də funksiyaları əlavə olunmuşdur. Artıq kitabxanaların bir-biri ilə qarşılıqlı fəaliyyətinin xarakteri də dəyişmişdir.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kitabxanaların səmərəli fəaliyyət göstərməsi, yeni xidmət növlərinin tətbiqi, oxuculara xidmət üzrə innovativ layihələrin həyata keçirilməsi, fondların yerli və xarici nəşrlərlə zənginləşdirilməsi üçün bir sıra xüsusi əhəmiyyətli sənədlər imzalamışdır. Həmin sənədlərin icrası nəticəsində kitabxana-informasiya sahəsində yeni texnologiyalar tətbiq edilmiş, müasir kitabxana-informasiya infrastrukturu yaradılmış və istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətlərinin sayının və keyfiyyətinin artırılması, əhalinin intellektual potensialının, bilik səviyyəsinin və informasiya mədəniyyətinin inkişafı üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən şəbəkəyə daxil olan bütün kitabxanalarda bu istiqamətdə silsilə tədbirlər həyata keçirilmiş, mütaliənin təbliğini, informasiya mədəniyyətinin inkişafını özündə əks etdirən sosial layihələrin respublika üzrə reallaşdırılması məqsədilə bir neçə tədbirlər planı hazırlanmışdır.

Məlumat üçün qeyd edək ki, informasiya mədəniyyəti təkcə kitabxana-biblioqrafiya mədəniyyəti və mütaliə mədəniyyətini özündə birləşdirmir, həm-

çinin ümumilikdə kitabxana mövcud olan regionda, respublikada informasiyalaşma prosesi haqqında kompleks biliklərə yiyələnməyi – informasiyalaşmanın hüquqi sahəsində, müəlliflik hüququ, söz azadlığı və şəxsiyyətin informasiya təhlükəsizliyi problemlərində istiqamətlənmək; müasir informasiya resurslarını, informasiya sistemlərində (kitabxana, arxiv, məlumat bazası) ayrıca sənədlərin xarakterik xüsusiyyətlərini anlamaq; informasiyanın toplanması, sistemləşdirilməsi, saxlanması və axtarışının ənənəvi və elektron vasitələrinin müsbət və mənfi cəhətləri barədə təsəvvürə malik olmaq; yeni texnologiyalardan istifadə bacarığı, kompyuter savadlılığını müntəzəm olaraq artırmaq və s. təmin edir. Hazırda kitabxanalarımızın, xüsusən də regionlarda Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin (MKS) oxucuları bir qayda olaraq, uşaqlar və yeniyetmələr, orta ümumtəhsil məktəblərinin şagirdləri və məzunları informasiya ilə bağlı axtarış apararkən köməksiz qalırlar: kitabxananın kataloq və kartotekasının quruluşunu, tərkibini, onların spesifik xüsusiyyətlərini bilmir, informasiya sorğularının ödənilməsi metodikasına bələd olmur, axtarışın nəticələrini doğru təhlil edib, tələbatlarına uyğun gələn dəqiq mənbəni seçə bilmirlər. Odur ki, kitabxanalarda informasiya mədəniyyəti üzrə xüsusi fəaliyyət istiqamətinin təşkili zəruridir.

MKS-lərin fəaliyyətində qarşıda duran əsas işlərdən biri ilk növbədə artmaqda olan informasiya axınında səriştəli və bilikli istifadəçi (oxucu) yetişdirməkdir. Odur ki, kitabxanaçılar hər bir oxucu ilə fərdi işləməli, kitabxanadan istifadə qaydaları, kitabxananın fondu, informasiya resursları, elektron sənədlər və internetdə düzgün axtarışın aparılması, onlayn bazalarla iş barədə onları məlumatlandırmalıdır. Mərkəzləşdirilmiş kitabxanalarda müxtəlif mövzularda "kitabxana dərsləri"nin keçirilməsi vacibdir. Bu dərslər ilkin kitabxana-biblioqrafiya biliklərinin mənimsənilməsindən başlayır. Daha sonra regionda olan təhsil və mədəniyyət müəssisələri ilə, digər kitabxanalarla qarşılıqlı birgə layihələrin həyata keçirilməsi, kitab təbliğinin yeni forma və metodlarından, innovativ xidmət üsullarından istifadə edilməsi məqsədəuyğun olardı. Bunlardan "Birgə oxuyaq", "Sənin ilk kitabxanan", "Ən çox oxunanlar", "Oxudun, dostunla paylaş", "Sənin informasiya mədəniyyətin" adlı aksiya, fləşmob, açıq kitab həftəsi, kitabxanaya ekskursiya, yeni kitablar haqda tanışlıq və başqa tədbirlərin adını qeyd etmək olar.

Bu istiqamətdə Azərbaycan Milli Kitabxanası və digər qabaqcıl kitabxanaların iş təcrübəsindən yararlanmaq, elektron resurslardan istifadə üzrə virtual sifariş xidmətindən faydalanmaq və Milli Kitabxananın nəşr etdiyi yeni metodik vəsaitlərdən iş prosesində istifadə edilməsi tövsiyə edilir.

Çünki informasiya mədəniyyəti olan şəxs anlayır ki, doğru və dəqiq informasiya əldə etmək günün tələblərinə uyğunlaşmaqda və yeniliklərlə ayaqlaşmaqda həlledici rol oynayır. Belə şəxs biliklərini nəzərə almaqla informasiya-

ya olan ehtiyacını anlayır, tələb olunan informasiya mənbələrini müəyyənləşdirir, günbəgün artan informasiya resursları içərisində axtarışı bacarır. İnformasiya mədəniyyəti olan şəxs informasiyaya tənqidi yanaşır və onu bacarıqla qiymətləndirir, informasiyanın keyfiyyətini müəyyən etmək üçün diqqətlə ölçüb-biçir.

İnformasiya mədəniyyətli şəxs informasiyadan dəqiq və yaradıcı istifadə edir, müxtəlif kontekstlərdə informasiyanı səmərəli və bacarıqla idarə edir. Əldə etdiyi informasiyanı problemin həlli, tənqidi düşüncə, yaradıcı özünüifadə və qərar vermə prosesində tətbiq etməyi bacarır. İnformasiyanın təhlili və işlənməsi nəticəsində əldə etdiyi yeni biliyi, yeni informasiya məhsulunu müxtəlif məqsədlərlə- geniş auditoriya üçün elmi və yaradıcılıq məqsədilə, həm tədris prosesində və ondan kənarda çap və elektron formada yayır. Odur ki, belə şəxslərin yetişdirilməsi böyük əhəmiyyət kəsb edir və bu təhsil müəssisələri kimi kitabxanaların da üzərinə xüsusi vəzifələr qoyur.

Regional səviyyədə kitabxanaların qarşılıqlı əməkdaşlığı, informasiya resurslarının toplanması, mühafizəsi və təqdim edilməsi prosesinin təkmilləşdirilməsi, onlara şəbəkədən girişin təşkili istifadəçilərdə informasiya mədəniyyətinin xüsusiyyətlərini formalaşdırmaqla resursların tez və rahat istifadəsini təmin etməyə və informasiya məkanında kitabxananın yerini müəyyən etmək üçün kitabxanalara müvafiq resursları yaratmağa imkan verəcək.

Kitabxanaların iş təcrübəsinə əsaslanaraq aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq yollarını təklif etmək olar:

- İnformasiya mədəniyyəti üzrə kitabxanaların qarşılıqlı əməkdaşlıq konsepsiyasının hazırlanması;
- Korporativ kataloqlaşdırma əsasında region üzrə vahid elektron toplu kataloqun yaradılması;
- Məlumat bazalarının mərkəzləşdirilmiş qaydada təşkili və onların birgə istifadəsi;
- Regionda oxucuların informasiya mədəniyyətinin formalaşması və inkişafı üzrə innovativ layihələrin reallaşdırılması.

Kitabxana və informasiya mərkəzləri bilik mənbəyi, müxtəlif formatlarda informasiyanı toplayan və çatdıran müəssisə, tədris fəaliyyəti üçün əsas institut, sorğu-informasiya məsləhətlərinin mərkəzi və internetə-qlobal informasiya məkanına çıxışı olan başlıca müəssisə olduğu üçün kitabxana işçiləri və informasiya sahəsinin mütəxəssisləri informasiya savadlılığı, informasiya mədəniyyəti sahəsində proqram və tədbirlərin həyata keçirilməsində mütləq iştirak etməlidirlər.

Vətəndaşları cəmiyyətin informasiyalaşdırılması prosesinə cəlb etmək məqsədilə cari informasiyaya əlyetərliyi təmin etmək, bütün həyatı boyunca şəxsin təhsilində kitabxanaların iştirakı kitabxananın əsas informasiya mərkəzi kimi mühafizəsinin və onlara tələbatın artmasının əsas şərtidir.

Deyilənləri nəzərə alaraq müasir kitabxanalar öz prioritet funksiyalarını yenidən nəzərdən keçirməli, iş prosesində yeni iş üsullarını və dünya üzrə qabaqcıl təcrübəni tətbiq etməlidirlər.

**Ədəbiyyat**

1. İnnovativ kitabxana-informasiya xidməti: sorğu kitabçası /tərt.ed. A.Abdullayeva; ixtisas red. və bur. məs. K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 41 s.
2. İsmayılova Ə. Açıq Kitabxananın fəaliyyətinin əsas istiqamətləri: metodik tövsiyələr /Ə.İsmayılova, A.Abdullayeva; red. K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 36 s.
3. İsmayılova Ə. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi: Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında /Ə. İsmayılova; red. K. Tahirov; Azərb. Resp. Mədəniyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası.- Bakı: Azərbaycan Milli Kitabxanası, 2016.- 55 s.
4. Mütaliə mədəniyyəti, kitabla rəftar və kitabxanadan istifadə qaydalarına dair metodik tövsiyələr /tərt. ed. A.Abdullayeva; red. və burax. məsul K.Tahirov.- Bakı, 2017.- 35 s.
5. Жуковская Л. Проектная деятельность региональной библиотеки по формированию информационной культуры обучающейся молодежи: системный подход// Библиосфера.- 2014.-№ 3.-с. 11-14.
6. Масякина Е.А. Формирование информационной культуры читателей в сельской библиотеке (из опыта работы библиотек Верхнекетского, Тегульдетского и Чаинского районов Томской области) //Вестник Томского государственного университета. Культурология и искусствоведение.- 2013.-№ 1 (9).- с. 14-22.
7. Формирование информационной культуры личности в библиотеках и образовательных учреждениях:учебно-методические пособие /Н.И. Гендина и др. Москва, 2002, 112 с.
8. Information literacy competency standards for higher education /The Association of College and Research Libraries a division of the American Library Association.- Chicago, 2000.- 16 p.